CultureTalk Azerbaijan Video Transcripts: http://langmedia.fivecolleges.edu

**The Power of Money**

**Azerbaijani transcript:**

S: Demək olar ki, indi Azərbaycanda prezidentin personal kultu yaranıb?

N: Hə, personal kultu... yəni o əsasən, bunun... dövlət, yəni Sovet zamanından qalma şeydi. Yəni Sovet zamanı deyə ki, Heydər Əliyev Komunist partiyasının Birinci Katibi idi Azərbaycanda. Dövlət konsertləri var idi. Necə Moskvada yapılırdı, burdada ondan yapılır. Dövlət konsertləri, deyəki, 7 Noyabr, 1 Mayı, bir başqa günlər... 8 Mart, yəni, dövlət, Sovet dövlət bayramları, dövlət konsertləri yapılırdı orada... dövlət sənətçiləri çıxırdı, konsert yapılırdı, ondan sonra... sonundada Brejneva bir şey verilirdi, Brejnevın rəsmi göstərilirdi, Leninın şəkili göstərilirdi, orada partiya... şey... "İnternasional" oxunurdu, partiya *şarkıları* oxunurdu. Bu gündə o davam edir. Amma bu şekildə ki, sonunda o Komunist partiya və İnternasionalın yerinə, bu gün əsasən Heydar Əliyev *şarkıları* oxunur, "prezident sağ olsun" *şarkıları* oxunur, onların rəsmi göstərilir, prezidentin yoldaşının rəsmi göstərilir... insanlarda bunu qəbul edir. Yəni nə qədər insanlar bunu qəbul edəcək, buda davam edəcək. Yəni insanlar bu gün, mən dedim, etnik... o qədər səviyə düşüb ki, insanlar nə verirlər, onu qəbul etmək zorundadır. Onlar heç bir şey əvəzində verə bilmirlər. Bu gün Bakıya gedəndə, hər kəs elə bilir ki, baxır Bakının mərkəzi çox gözəlləşib, təmizlənib, amma o mərkəz... mərkəzdən kənara, deyək ki Yasamalın ortasılarına gedərsiz, Mikrorayonlara gedərsiz, bir az çıxanda eski Bakının ən *kötü* variantı... yəni o tərəflərdə heç küçələr təmizlənmir, o tərəflərdə tükanlarda olan mal çox aşağı kalitədədir, onu heç insan... qidasına vermək qadağan olan mallardı... yəni belə. Bu gün o etiket... etiket-ın içində olan Azərbaycan, siz görən kimi deyil. Etiketin olan içində Azərbaycan, yəni 50 dollar alan müəllim məcburdı... yəni, mas şəkilində, kütləvi şəkilində rüşvət alsın, *hırsızlıq* etsin. Bakıda çox yayğındır, bir birini atmaq, yəni necə... "Gəl sənin işivi düzəldim", para almaq, sonra qaçmaq, yəni o çox yayğın şeydi, insanlarıda ümid gərəkdir. Bax o ümididə satırlar. Sənə nə gərəkdir? Ümid. "Sənin işin düzələcək. Para ver, mən sənin işivi düzəldəcəm." Düzəldmir, gedir. Yəni bu çox yayğın şeydir Bakıda. İnsanların sonuncu ümididir. Ölmiş. Yəni insanlar heç bir şeyə dayı Bakıda mən gördüyüm kimi inanmır, ancaq bir şeyə inanır. Paranın gücünə. Pulun gücünə. Başqa heç bir şeyə. Ona görə ki, doğurdanda bu illər göstərdi ki, başqa heç bir şeylərləmi... kimin pulu var, bu gün Bakıda gözəl gözəl yaşayır. Yəni, bilim, kultur, səviyyə, onlar heç biri bu gün Bakı üçün gərək deyil, Balı üçün toyxanalar var, toylar, yubileylər, kafelər, nəbilim o... şadlıq evləri, yeni yeni mebellər, insanlar xarıcədə... Sovet zamanı o mümkun deyil idi, xaricədə gedir, Avropayada gedir, Amerikaya gedir, yeni mallar. Bu gün Bakıya getsəz, insanların geyimindən görərsin ki, bunlar geyinir, elə bil ki... hamısı Pyer Kardendən, böyük bir markalı tükanlardan alan geyiblər. Amma o etiketdir. O millətin yüzdə beşidir. Yüzdə doxsanbeşi, təkçə Bakı deyil, Bakı kəndləri var, Azərbaycanın başqa yerləri var, yüzdə beşi (doxsanbeşi) çox acınacaqlı vəziyyətdədir. Millət.

**English translation:**

S: Would you say that now in Azerbaijan there has been created a personality cult of the president?

N: Yes, personality cult… generally, it is… the state… this is a thing that got left behind from the Soviet times. That is to say, during the Soviet time, Heydar Aliyev was the First Secretary of the Communist Party in Azerbaijan. There were national concerts. Like the same way that was done in Moscow, it's done here as well. National concerts, let's say, November 7th, May 1st, other days… March 8, national, Soviet national holidays, national concerts were being held there… national artists would come, would give a concert, after that… at the end they gave something to Brezhnev, his picture was shown, Lenin's picture was shown, the party… they sang "International", party songs were sung. Today, this continues. But in a form where, instead of Communist party and International, today songs about Heydar Aliyev are being sung, "long live president" songs are being sung, their pictures get shown, president's wife's picture gets shown… and the people accept this. As long as people accept this, this will continue. That is to say, the people today, ethnic… their level has decreased so much that people are forced to accept whatever is given to them. They can't replace it with anything else. If you go to Baki today, everybody thinks that…sees that the downtown of Baki has become more beautiful, has become clean, but it's the downtown… if you go away from the downtown, let's say to Yasamal, to the micro-districts[1], if you go a little bit away, you will see old Baki's worst version… In those places, the streets don't get cleaned at all. In those places the goods that are in the stores are very low quality, it's… goods that are dangerous for human consumption… like that. Today that label… that Azerbaijan is just a label, it's not like you see it. The Azerbaijan that is inside a label, a teacher who gets fifty dollars is forced… in a big way, to take massive bribes, commit theft. In Baku, scamming is very widespread, how… "Let me help you", they take money, then run away, it's a very widespread things, people need faith. And that faith is sold. What do you need? Faith. "Everything will work out for you. Give me money, I will fix your issue." Doesn't fix… leaves... That is to say, this is a very widespread thing in Baki. It's people's last hope. It's dead. Meaning, people no longer believe in anything, from what I've seen in Baki, they only believe in one thing, the power of money. In the power of money. Nothing else. Because these years really showed that, no other things will… whoever has money, today lives a beautiful, beautiful life in Baki. Knowledge, culture, standards, none of them are needed for Baki today. There are many wedding palaces in Baki, weddings, anniversaries, cafes, I don't know… event houses, new, new furniture, people also (go) abroad… during the Soviet time it wasn't possible, now people go abroad, go to Europe, go to America, new things. If you go to Baki today, if you look at how people dress, they dress as if… everybody from Pierre Cardin…buy and dress from big fashionable boutiques. But it's just on the surface. It's five percent of the population. Ninety five percent. It's not only Baki, there are villages around Baki. There are other places in Azerbaijan, five percent (ninety five percent) are in a very miserable situation. The people...

[1] micro-district :*mikrorayon* in Azeri. Smallest administrative subdivision of a region.

**About CultureTalk:** CultureTalk is produced by the Five College Center for the Study of World Languages and housed on the LangMedia Website. The project provides students of language and culture with samples of people talking about their lives in the languages they use everyday. The participants in CultureTalk interviews and discussions are of many different ages and walks of life. They are free to express themselves as they wish. The ideas and opinions presented here are those of the participants. Inclusion in CultureTalk does not represent endorsement of these ideas or opinions by the Five College Center for the Study of World Languages, Five Colleges, Incorporated, or any of its member institutions: Amherst College, Hampshire College, Mount Holyoke College, Smith College and the University of Massachusetts at Amherst.

© 2003-2009 Five College Center for the Study of World Languages and Five Colleges, Incorporated